Milli Büdcə Qrupu

# AYLIQ BÜLLETEN №1(1)

Mart 2007

# 1. Büdcə prosesi və onun icrası

*Dövlət büdcəsinin icrası (yanvar-fevral 2007-ci il)*

2007-ci ilin yanvar-fevral ayları ərzində dövlət büdcəsinin gəlirləri 777,1 milyon manat, xərcləri 462,7 milyon manat olmuş və büdcənin icrasında 314,4 milyon manatlıq (ümumi daxili məhsulun 9,6 faizi qədər) profisit yaranmışdır.

Əvvəlki ilin eyni dövrü ilə müqayisədə büdcə gəlirləri 84,9 faiz və ya 356,9 milyon manat art- mış, xərclər isə 14,0 faiz (56,9 milyon manat) azalmışdır. Büdcə gəlirlərinin 71,9 faizi (558,5 mil- yon manatı) Vergilər Nazirliyi, 14,0 faizi (108,7 milyon manatı) Dövlət Gömrük Komitəsi tərəfindən daxil edilmiş, büdcə proqnozu isə bu təşkilatlar tərəfindən müvafiq olaraq 97,2 faiz və 101,5 faiz yerinə yetirilmişdir. Gəlirlərin 149,1 milyon manatı və ya 19,2 faizi əlavə dəyər vergisindən, 311,5 milyon manatı (40,1 faizi) mənfəət vergisindən, 68,8 milyon manatı (8,8 faizi) əhalidən tutulan gəlir vergisindən, 35,0 milyon manatı (4,5 faizi) aksiz vergisindən, 56,1 milyon manatı (7,2 faizi) isə xarici iqtisadi fəaliyyətlə bağlı vergilərdən daxil olmuşdur. Büdcə xərclərinin 101,3 milyon manatı (21,9 faizi) əhalinin sosial müdafiəsi və sosial təminatına, 48,2 milyon manatı (10,4 faizi) təhsilə, 115,9 milyon manatı (25,0 faizi) isə iqtisadiyyata investisiya qoyuluşuna sərf edilmişdir. Büdcə xərclərinin 40,0 faizini (185,0 milyon manatını) əhaliyə əmək haqqı, pensiya və müavinət ödəmələri təşkil etmişdir.

**2007-ci ilin yanvar-fevral aylarında Dövlət budcəsinin icrası aşağıdakı məlumatlarla xarakterizə olunur:**

| | İcra, milyon manat | Xüsusi çəkisi, faizlə | | 2006-cı ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|---|---|
| | | Yekunda | ÜDM-da | |
| ***Gəlirlər – cəmi*** | **777,1** | **100,0** | **23,7** | **184,9** |
| o cümlədən: | | | | |
| Əhalidən tutulan gəlir vergisi | 68,8 | 8,8 | 2,1 | 143,9 |
| Mənfəətdən vergi | 311,5 | 40,1 | 9,5 | 4,0d |
| Torpaq vergisi | 3,4 | 0,4 | 0,1 | 161,9 |
| Əmlak vergisi | 9,0 | 1,2 | 0,3 | 134,3 |
| Əlavə dəyər vergisi | 149,1 | 19,2 | 4,6 | 155,8 |
| Aksiz vergisi | 35,0 | 4,5 | 1,1 | 2,1d |
| Mədən vergisi | 14,4 | 1,9 | 0,4 | 142,6 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər: | 56,1 | 7,2 | 1,7 | 133,9 |
| ondan: - idxal rüsumu | 22,9 | 2,9 | 0,7 | 100,4 |
| Sair vergilər | 7,7 | 1,0 | 0,2 | 183,3 |
| Digər gəlirlər | 122,1 | 15,7 | 3,7 | 103,6 |

| | İcra, milyon manat | Xüsusi çəkisi, faizlə | | 2006-cı ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|---|---|
| | | Yekunda | ÜDM-da | |
| **Xərclər – cəmi** | **462,7** | **100,0** | **14,1** | **114,0** |
| o cümlədən: | | | | |
| Ümumi Dövlət Xidməti xərcləri | 61,9 | 13,4 | 1,9 | 67,7 |
| ondan: | | | | |
| Beynəlxalq təşkilat-lara üzvlük haqqı | 0,5 | 0,1 | 0,02 | 5,0d |
| Məhkəmə hakimiyyəti, hüquq-mühafizə, təhlükəsizlik orqanlarının və prokurorluğun saxlanması xərcləri | 40,7 | 8,8 | 1,2 | 151,3 |
| Təhsil xərcləri | 48,2 | 10,4 | 1,5 | 91,5 |
| Səhiyyə xərcləri | 7,9 | 1,7 | 0,2 | 74,5 |
| Sosial müdafiə və sosial təminat xərcləri | 101,3 | 21,9 | 3,1 | 2,7d |
| Mədəniyyət, incəsənət, kütləvi informasiya, bədən tərbiyəsi və din sahəsində fəaliyyətə çəkilən xərcləri | 7,6 | 1,6 | 0,2 | 146,2 |
| İqtisadiyyata çəkilən xərclər | 115,9 | 25,0 | 3,5 | 81,2 |
| ondan:<br>- mənzil-kommunal təsərrüfatı xərcləri | 4,6 | 1,0 | 0,1 | 135,3 |
| - kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq xərcləri | 10,9 | 2,4 | 0,3 | 143,4 |
| - sənaye və tikinti xərcləri | 96,6 | 20,9 | 3,0 | 79,0 |
| - nəqliyyat və rabitə xərcləri | 3,8 | 0,8 | 0,1 | 46,3 |
| Sair xərclər | 79,2 | 17,2 | 2,5 | 2,0d |
| ***Profisit*** | **314,4** | - | **9,6** | - |

***2007-ci ilin fevral ayında Dövlət Neft Şirkətinin büdcə köçürmələri***

2007-ci ilin fevral ayında Dövlət Neft Şirkəti dövlət büdcəsinə 60 846 min manat ödəyib. Bu rəqəm ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 089 min manat azdır. Bu barədə məlumatı ARDNŞ-dən veriblər. Əhalinin Sosial Müdafiəsi Fonduna fevral ayında 4 649 min manat (ötən ilin müavafiq göstəricisindən 1 398 min manat çox) ödənilib. 2006-cı ildə Dövlət Neft Şirkəti dövlət büdcəsinə 734 701 min manat ödəyib. Bu göstərici 2005-ci il ərzində isə 189 697 min manat təşkil edib. Əlhalinin Sosial Müdafiəsi Fonduna isə müvafiq olaraq 2006-cı ildə 51 861 min manat, 2005-

ci ildə isə 21 587 min manat pul keçirilib. Azərbayacan Dövlət Neft Şirkətinin büdcə köçürmələrinin məlumat cədvəli: (min.AZN)

| Aylar | 2006-cı il | 2007-ci il | Fərq |
|---|---|---|---|
| | Fakt | Fakt | Fakt(2006-2007) |
| Yanvar | 39 559 | 51 160 | 11 601 |
| Fevral | 63 935 | 60 846 | -3 089 |
| Cəmi | 103 494 | 112 227 | 8 733 |
| Əhalinin Sosial Müdafiəsi Fonduna köçürmələr | | | |
| Yanvar | 6 483 | 9 960 | 3 477 |

***Gömrük Komitəsindən büdcə daxilolmaları artıb***

İlkin göstəricilərə görə, Azərbaycanın Dövlət Gömrük Komitəsi yanvar-mart aylarında dövlət büdcəsinə proqnozlaşdırılan 163,80 mln. manata qarşı 166,04 mln manat gömrük vergi və ödənişləri həyata keçirib. Bu barədə DGK-nın mətbuat xidmətindən məlumat veriblər. Proqnoz tapşırığı 101,37 faiz yerinə yetirilib. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 40,41 mln. manat, yaxud 32,17 faiz çoxdur. 2006-cı ildə DGK büdcəyə 139,64 mln manat artımla 505,4 mln manata qarşı 515,81 mln. manat keçirib.

***Hökumət 2006-cı ildə Azərbaycanda dövlət büdcəsinin yerinə yetirilməsinin artımını təsdiqləyib***

2006-cı ildə Azərbaycan dövlət büdcəsinin gəlirli hissəsinin yerinə yetirilməsi 101,2 faiz təşkil edib. Bu barədə bu gün Milli Məclisdə baş nazir Artur Rəsizadə məlumat verib. 2005-ci illə müqayisədə gəlirlər 1,9 dəfə artaraq 3 881,2 mln. manat təşkil edib. Qeyri-neft sahəsindən gəlirlərin səviyyəsi 35 faiz təşkil edib. Dövlət büdcəsinin xərcləri 2005-ci illə müqayisədə 77 faiz artaraq 3 789,7 mln. manata çatıb. A.Rəsizadənin sözlərinə görə, ölkənin müdafiə qabiliyyətinin güclən- dirilməsi məsələsi bir daha diqqət mərkəzində olub. Ölkənin hərbi-texniki bazasının gücləndi- rilməsi məqsədilə dövlət büdcəsindən 640 mln. manat ayrılıb, bu da 2005-ci illə müqayisədə 2,2 dəfə çoxdur. Büdcə xərcləri strukturuna kapital qoyuluşuna 720 mln. manat ayrılıb. Dövlət invest- tisiyaları 5,4 dəfə artıb.

***Hökumət 2008-ci ilin dövlət və icmal büdcəsinin hazırlanmasına start verib***

Azərbaycan hökuməti 2008-ci ilin dövlət və icmal büdcəsinin hazırlanmasına start verib. Bu barədə Milli Məclisdə çıxışı zamanı məlumat verən maliyyə naziri Samir Şərifov bildirib ki, artıq bu istiqamətdə iş aparılır. Nazir qeyd edib ki, büdcə layihəsi hazırlanan zaman millət vəkillərinin səsləndirdikləri təkliflər də nəzərə alınacaq.

***Azərbaycan MDB büdcəsinə ödəmələrlə bağlı üzərinə götürdüyü öhdəlikləri 100% yerinə yetirir***

Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinin vahid büdcə orqanına ödəmələrlə bağlı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirir. Bu barədə 2007-ci ildə MDB vahid büdcə orqanına üzv

dövlətlər tərəfindən köçürmələr barədə məlumatda göstərilib. Bu sənəd martın 30-da Moskvada keçirilən MDB İqtisadi Şurasının 33-cü iclasında müzakirə olunub. Verilən məlumata əsasən, 2007-
ci ildə MDB büdcəsinə Azərbaycan tərəfindən ödənilməli olan vəsait 5,391 mln. rubl müəyyən-əşdirilib. 2006-cı il üçün Azərbaycan MDB vahid büdcəsinə ödəmələr üzrə öz öhdəliyini 100% yerinə yetirib. 2006-cı ildə MDB büdcəsi 278,589 mln. rubl təşkil edib. Cari il üçün isə bu rəqəm 336,735 mln. rubl nəzərdə tutulub.

# 2. Vergilər

### *Ümumi bəyannamə sisteminə keçmək üçün vergi amnistiyası tələb olunur*

Əhalinin gəlirlərini bəyannamə formasında sistemə salmaq üçün hökumət ilk növbədə müəyyən həvəsləndirmə tədbirləri həyata keçirməlidir. Azərbaycan Vergilər Nazirliyindən verilən məlumata görə, bu tədbirlərdən biri vergi amnistiyasının aparılmasıdır ki, bunu etmədən fiziki və hüquqi şəxslərin gəlirlərinin bəyannamə formasında bildirilməsi sistemini yaratmaq mümkün olmayacaq. Bu cür təcrübə bir çox dünya ölkələrində aparılıb. Son illərdə, xüsusilə Avropa ölkələrində vergi amnistiyaları nəticəsində dövlət büdcəsinə iri həcmdə vəsaitləri qaytarmaq mümkün olub. Azərbaycanda ümumi bəyannamə sisteminə keçilməsi yalnız gəlirlərin qanuniləşdirilməsini deyil, eyni zamanda dövlət büdcəsinə daxil olmaları, vergi yığılmasının həcmini artıracaq. Vergi bəyannaməsi verməkdən azyaşlı uşaqlar, əhalinin əmək qabiliyyətli olmayan hissəsi, həmçinin hərbi qulluqçular, axtarışda olanlar, azadlıqdan məhrum olunanlar və ölkə xaricində əsirlikdə olanlar azad olunacaq. Vergilər Nazirliyi vəzifəli şəxslərin vergi bəyannaməsi verməsi qaydalarını hazırlayaraq Nazirlər Kabinetinin təsdiqinə verib. "Bəyannamə sisteminə keçid çətin prosesdir. Bu proses nəticəsində ölkə əhalisi bütünlüklə bu sistemə keçməlidir. Bunu həyata keçirmək üçün baza hazırlığı tələb olunur. İlk növbədə bu vəzifəli şəxslərə aid olunacaq",-deyə nazirlikdən bildirilib.

**Dövlət büdcəsinə vergi və digər ödəmələrin daxil olması haqqında məlumat**

**Fevral, 2007** (min AZN)
Naxçıvan MR ilə

| **Vergi və tədiyyələrin növləri** | **2007, fevral** | | | |
|---|---|---|---|---|
| | **Proqnoz** | **Daxilolma** | **Faiz** | **Fərq** |
| Əlavə dəyər vergisi | 43 470,6 | 44 066,9 | 101,4 | 596,3 |
| Aksiz | 15 001,5 | 11 133,2 | 74,2 | -3 868,3 |
| Mənfəət vergisi | 54 564,7 | 30 069,1 | 55,1 | -24 495,6 |
| Mədən vergisi | 8 978,5 | 4 013,0 | 44,7 | -4 965,5 |
| Torpaq vergisi | 2 072,0 | 893,0 | 43,1 | -1 179,0 |
| Əmlak vergisi | 5 430,8 | 4 362,8 | 80,3 | -1 068,0 |
| Fiziki şəxslərin gəlir vergisi | 40 636,1 | 35 959,8 | 88,5 | -4 676,3 |
| Dövlət rüsumu | 3 545,4 | 3 634,2 | 102,5 | 88,8 |
| Yol vergisi | 1 242,0 | 599,4 | 48,3 | -642,6 |
| Sadələşdirilmiş vergi | 3 341,5 | 2 707,1 | 81,0 | -634,4 |
| Sair daxilolmalar | 21 716,4 | 21 636,4 | 99,6 | -80,0 |

## 3. Büdcə xərcləmələri

***2006-cı ildə Bakıda körpü və keçidlərin tikintisinə 112,4 milyon manat xərclənib***

2006-cı ildə doqquz nəqliyyat qovşağı və piyada keçidlərinin tikintisinə 112,4 milyon manat xərclənib. Bu barədə Azərbaycan Nəqliyyat Nazirliyinin nəqliyyat siyasəti və iqtisadiyyatı şöbəsinin rəisi Sədrəddin Məmmədov məlumat verib. Keçən il Nəqliyyat Nazirliyi iki nəqliyyat qovşağı və iki keçidin tikintisisni başa çatdırıb. Digərlərinin bu ilin sonuna qədər istifadəyə verilməsi nəzərdə tutulub. Həmçinin «Məşədi Əzizbəyov» metro stansiyasından «Heydər Əliyev» adına Beynəlaxlq Hava Limanına qədər 12,6 km uzunluqda olan yeni avtomobil yolunun və Bakı dairəvi yol – 1-in ( 21,5 km) tikintisinə başlanılıb. Hazırda Bakı dairəvi yolu-2-nin layihə- ləndirilməsi aparılır. Bu işlər Azərbaycan prezidentinin «2006-2007-ci illərdə Bakı şəhərinin nəqliyyat sisteminin təkmilləşdirilməsi haqqında» sərəncamı çərçivəsində həyata keçiriləcək.

***Hökumət Azərbaycanın kimya müəssisələrinə maliyyə yardımı edəcək***

Bu gün Nazirlər Kabinetində baş nazir Artur Rəsizadənin rəhbərliyi ilə Azərkimya Dövlət Şirkətinin müəssisələrinin fəaliyyətinin dayandırılması ilə bağlı geniş iclas keçirilib.
Çərşənbə axşamı hökumətdən verilən məlumata görə, iclasda müəssisələrin fəaliyyətinin bərpa edilməsi və qarşıdan gələn Novruz bayramı münasibətilə əmək haqqı borclarının ödənilməsi barədə əmr verilib. Dövlət Şirkətinin problemlərinin həlli üçün müvafiq qurumlara tapşırıqlar verilib və dövlətin kimya müəssisələrinin fəaliyyətini davam etdirməsi üçün maliyyə yardımı ayırmağa hazır olduğu bildirilib. Azərkimyanın enerji təchizatı məsələsinin həll olunması barədə göstiş verilib. “Sumqayıtelektrikşəbəkə” enerjinin kəsilmədiyini bildirsə də, Nazirlər Kabinetində bu fakt təkzib olunub. “Bir faza ilə bütün kimya müəssisələrində işi təmin etmək mümkün deyil”,-deyə hökumətdən bildiriblər. Şirkət rəhbərliyi borclar məsələsinin ən azı 2011-ci ilə qədər uzadılmasını xahiş edib. Hökumətdə isə bildirilib: “Borcların silinməsi məsələsinə baxılmır, onlar özləri hesablaşmalıdırlar. Buna görə də bu mərhələdə təxirə salınma məsələsi ən real həll variantı hesab olunur”. İclasın sonunda qəbul olunmuş protokola əsasən, son bir neçə gündə müəyyən tədbirlər görüləcək. Burda şirkət rəhbvərliyi tərəfindən bəzi kimya məhsullarının (kaustik (yandırıcı) soda, dixloretan, propilen, izopropilon spirti, maye xlor, butadin, sintetik maddələr) idxal qiymətlərinin qaldırılması barədə hələ ötən il verilmiş təkliflərdən də istifadə olunacağı istisna olunmur. Enerjidaşıyıcılarının qiymətlərinin baha, avadanlıqların köhnə olması, müasir laboratoriyaların olmaması şirkətin beynəlxalq standartlara cavab verə biləcək tərzdə işləməsinə mane olur. Ölkədə 100-dən yuxarı müəssisə fəaliyyət göstərir ki, bunların da 70-80%-i dövlətin balansındadır. Bu cür problemlərin mövcudluğu ucbatından kimya sənayesinin inkişaf tempi aşağı düşür. Müvafiq olaraq bu rəqəmlər 2006-cı ildə 3,4%, 2005-ci ildə 3,7%, 2004-cü ildə 4,7%, 2003-cü ildə 3,9%, 2000-ci ildə 3,4%, 1995-ci ildə 3% olub. 2007-ci ilin yanvar ayında isə kimya məhsullarının istehsalı 43,6% azalıb.

***Maliyyə naziri: «Elmin maliyyələşdirilməsini nəzərdə tutan konsepsiya üzərində iş aparılır»***

Elmin maliyyələşdirilməsini nəzərdə tutan konsepsiya üzərində iş aparılır. Bu barədə məlumat verən maliyyə naziri Samir Şərifov qeyd edib ki, yaxın günlərdə sənədin hazırlanması prosesi başa çatacaq və hökumətə təqdim olunacaq. Nazir əlavə edib ki, elmin maliyyələşdirilməsini nəzərdə tutan sənəd qəbul edildikdən sonra bu sahədə ciddi irəliləyişlərə

nail olmaq mümkün olacaq. «Son bir ildə Milli Elmlər Akademiyası işçilərininr maaşları 100 faiz artırılıb. Hesab edirəm ki, hazırda üzərində iş aparılan konsepsiya qəbul edildikdən sonra 2007-ci ildə bu sahədə irəliləyişlər əldə olunacaq. » S.Şərifov vurğulayıb ki, dövlət büdcəsinin imkanları artdıqca kinoların çəkilməsinə ayrılan vəsait də artırılacaq.

***Fermerlərə maliyyə yardımının verilməsinə hazırlıq üçün Kənd Təsərrüfatı Nazirliyində xüsusi komissiya yaradılıb***

Kənd təsərrüfatı sahəsində fermerlər tərəfindən əldə olunan yanacaq və mineral gübrələrin dəyərinin 50%-nin kompensasiyası məqsədilə maliyyə yardımının verilməsinə 2007-ci ilin iyul ayının sonunda başlanacaq. Bu barədə kənd təsərrüfatı nazirinin müavini Bəhram Əliyev məlumat verib. Onun sözlərinə görə, ayrılmalar üçün dövlət büdcəsindən 80 mln. manat ayrılıb. Fermerlər maşın və mexanizmlər, makroelementlər (azot, fosfor, kalium) əldə edə bilər. Bu istiqamətdə tədbirləri həyata keçirmək üçün nazirin göstərişi ilə kənd təsərrüfatı nazirliyində kənd təsərrüfatı nazirinin müavini İlham Quliyevin rəhbərlik etdiyi xüsusi komissiya yaradılıb. «Komissiya daimi əsasla yerlərdə Nazirlər Kabinetinin qaydalarına uyğun tədbirlər həyata keçirir. Fermerlərə maliyyə yardımları Kapitalbank dövlət bankı vasitəsilə plastik kartlarla veriləcək», deyə B.Əliyev bildirib. Bununla əlaqədr bank həmçinin respublika üzrə bankomatların və POS –terminalların sayını artırır. Bunlar vasitəsilə fermerlər kompensasiyaları əldə edəcək. Hazırda respublika üzrə Kapitalbankın 192 işlək bankomatı quraqşdırılıb, bunlardan 119-u və 370 POS-terminal ölkənin regionlarındadır. İnfrastrukturun regionlarda qərar tutması banka digər banklarla müqayisədə rəqabətə davamlılıqda üstünlük verir. Bankın planlarına 2007-ci ildə əlavə 80 bankomat və 1000 POS-terminalların əldə olunması daxildir. Maliyyə yardımlarının verilməsinə ölkə üzrə fermerlərin sayının dəqiqləşdirilməsi və onlar üçün kartların əldə olunmasından sonra başlanacaq. İlkin hesablamalara görə, onların sayı 800 000-dir. Lakin hamı üçün kartların sifariş edilməsi nəzərdə tutulmayıb. Təqaüdçü fermerlər təqaüd kartları, qaçqın və məcburi köçkünlər isə çörək pulu almaq üçün onlarda olan Kapitalbank kartlarından istifadə edə bilər. Bankın xərclərini bir az azaltmaq üçün yanacaqdoldurma məntəqələrində POS-terminalların quraşdırılması planlaşdırılır. Bu fermerlərə yanacağı nağd pul istifadə etmədən əldə etməyə imkan verəcək və bununla da bankın nağd pulun çatdırılması ilə bağlı xərcləri azalacaq.

***Naxçıvan şəhərində əhalinin 2,81 %-i ünvanlı dövlət sosial yardımı alır***

Fevral-mart aylarında Naxçıvan şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzinə sosial yardım almaq üçün 358 nəfər yazılı müraciət edib. Mərkəzin direktoru Mədət İsmayılov bidirib ki, 342 müraciətə baxılıb, 332 aztəminatlı ailəyə ünvanlı dövlət sosial yardımı təyin edilib. Bu zaman 10 imtina halı qeydə alınıb. 7 ailə yardımın verilməsinə təsir edəcək hallar barədə zəruri məlumat vermədiyi, 3-ü isə ailənin orta aylıq gəlirinin ehtiyac meyarı məcmusundan çox olduğu üçün onlara yardım verilməsinə imtina edilib. Digər 16 müraciət isə araşdırılır. Mərkəzdən onu da bildiriblər ki, yanvar-fevral aylarında müraciət edənlərdən 188-i təkrar müraciətlərdir. Müraciət edənlərin sayında isə azalmalar müşahidə edilir. Təkcə fevralda 42 yeni müraciət olub, ödəmələr isə 23 min 548 manat təşkil edib. Naxçıvan şəhərində 70 600 nəfər əhali yaşayır. 493 ailə ünvanlı dövlət sosial yardımı alır. Bu da şəhər əhalisinin 2,81 faizini təşkil edir.

# 4. Büdcəyə nəzarət və şəffaflıq

**Azərbaycanın Hesablama Palatası IT-nin maliyyə nəzarətində tətbiq edilməsi üzrə beynəlxalq konfransda iştirak edib**

Azərbaycanın Hesablama Palatasının (AHP) auditor Nazim Həsənovun başçılıq etdiyi nümayəndə heyəti Suzdalda keçirilən «Maliyyə nəzarəti və yeni informasiya texnologiyaları» II beynəlxalq elmi-praktik konfransda iştirak edib. Bu barədə AHP-dən məlumat verilib. Tədbirdə Rusiya Federasiyası, Avropa və Asiyanın 70 regionundan nümayəndələr iştirak edib. Konfransda qeyd olunub ki, inforomasiya texnologiyalarına əsaslanmış yeni analitik metodlar maliyyə nəzarətində və dövlət idarələrinin auditində tələbatı təmin edə bilər. Konfransda Rusiya, Ukrayna və digər dövlətlərin maliyyə nəzarətləri sahəsində informasiya-kommunikasiya texnologiyalarının imkanları nümayiş etdirilib.

***Azərbaycanın Hesablama Palatası Agrolizing-də auditə başlayıb***

Azərbaycanın Hesablama Palatası (AHP) Agrolizing ASC-nin auditinə başlayıb. Bu barədə cümə günü AHP-dən məlumat verilib. Audit aprelin 27-dək davam edəcək, mühasibat hesabları, ödəmə-hesab və uçota əsasən ilkin sənədlər yoxlanılacaq. Yoxlamaların məqsədi 2005-2006-cı illər üçün dövlət büdcəsindən «Kənd təsərrüfatı» xərcləri üçün ayrılmış vəsaitlərin istifadəsinin müəyyən edilməsidir. Agrolizing ASC 23 oktyabr 2004-cü il tarixində yaradılıb. Müəssisənin fəaliyyəti aqrar sahənin yaxşılaşdırılması və ölkədə yerli torpaq sahiblərinə lizinq yolu ilə kənd təsərrüfatı texnikasının verilməsi ilə sahibkarlığa yardıma istiqamətlənib.

***Azərbaycanın Hesablama Palatası Rabitə Nazirliyində audit aparır***

Azərbaycan Hesablama Palatası (AHP) Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və nazirliyin beynəlxalq münasibətlər və hesab mərkəzində audit aparır. Bu barədə cümə günü AHP-dən məlumat verilib. Audit vergi gəlirləri mexanizminin vəziyyətinin tədqiqi və rabitə nazirliyi sistemində ödəmələr, həmçinin birgə hesabların vəziyyəti, beynəlxalq münasibətlər və hesab mərkəzi vasitəsilə çıxan payın bölüşdürülməsi üçün aparılır. Audit aprelin 27-dək davam edəcək. Mərkəz beynəlxalq telekommunikasiya və poçt xidmətləri ilə birgə dövlətlərarası hesablar həyata keçirir.

***Azərbaycanın Hesablama Palatası Dövlət Pedaqoji Universitetində yoxlama aparır***

Azərbaycan Hesablama Palatası (AHP) Dövlət Pedaqoji Universitetində audit aparır. Bu barədə AHP-dən məlumat verilib. Auditin məqsədi büdcə və qeyri-büdcə mənbələrindən daxil olan vəsaitlərin istifadəsini, tam maliyyələşdirilməsi və proqnozdaşdırılmasının qanunauyğunluğunu müəyyən etməkdir. Yoxlamalar 1 iyun 2004-cü ildən 1 yanvar 2007-ci ilə qədər olan dövrü əhatə edir və aprelin 27-dək davam edəcək. Palata həmçinin Agrolizing ASC və Rabitə və İnformasiya texnologiyaları nazirliyində yoxlama aparır. Bu dövlət müəssisələrinin auditini aprelin sonunda başa çatdırmaq planlaşdırılır. Hesablama Palatası Azərbaycan parlamenti tərəfindən yaradılıb və 7 dekabr 2001-ci tarixindən fəaliyyətə başlayıb.

## 5. Büdcə qanunvericiliyi

***Azərbaycan Maliyyə Nazirliyinin funksiyaları genişləndirilib***

Martın 12-də prezident tərəfindən təsdiq olunmuş Maliyyə Nazirliyinin Əsasnaməsinə dəyişikliklərə uyğun olaraq nazirliyin səlahiyyətləri genişləndirilib. Bu barədə rəsmi mətbuatda nəşr olunmuş Prezidentin sərəncamında deyilib. Maliyyə Nazirliyinə zərurət yarandıqda təsdiq olunmuş büdcə ayırmaları həddində funksional təsnifatın bölmələri daxilində, iqtisadi təsnifatın bölmə, köməkçi bölmə, paraqraflar, maddə və yarımmaddələri arasında dəyişikliklər etmək səlahiyyəti verilib. Maliyyə Nazirliyinə büdcə ili ərzində vahid xəzinə hesabında olan vəsaiti (sərbəst qalıq) idarə etmək və ya qanunvericiliklə müəyyən edilmiş qaydada idarəetməyə vermək həvalə olunub. Həmçinin qiymətli metal və məmulatlara əyar vurmada dövlət rüsumu qoyulacaq və bu vəsaitlər birbaşa dövlət büdcəsinə daxil olacaq. Əvvəllər olduğu kimi Maliyyə Nazirliyi tərəfindən müəyyən edilmiş tariflərə əsasən qeyri-büdcə fondlarına daxil edilməyəcək. Dövlət rüsumunun ölçüsü qanunla müəyyən olunaraq Milli Məclis tərəfindən təsdiqlənəcək.

***Azərbaycan Maliyyə Nazirliyi «Sığorta haqqında» yeni qanun işləyib hazırlayıb***

«Sığorta haqqında» yeni qanun aprel ayında hazır olacaq. Çərşənbə axşamı Azərbaycan maliyyə nazirliyi dövlət sığortaya nəzarət şöbəsinin müdiri Namiq Xəlilovun dediyinə görə, hazırda qanun layihəsi işlənilir. Xəlilovun fiikrinə görə, daha çox inkişaf etmiş sığorta bazarına ilk addım 2010-cu il 1 yanvar üçün şirkətin nizamnamə kapitalına baxış olacaq, bu isə 3 milyon manat təşkil etməlidir. Bu da peşəkar sığorta bazarının inkişafına və genişlənməsinə təkan verəcək. Nazirlər Kabinetinin 9 aprel 2004-cü il tarixli qərarına görə, sığorta şirkətinin nizamnamə kapitalı bu sıralanmayla artmalıydı:
1yanvar 2005 il - 500 min. manat,
1yanvar 2006 il - 600 min. manat,
1yanvar 2007 il - 700 min. manat,
1yanvar 2010 il – 1 mln. manat.

***Bələdiyyələrə əlavə səlahiyyətlərin verilməsini nəzərdə tutan qanun layihəsi hazırlanıb***

Milli Məclisin Regional məsələlər daimi komissiyasının martın 29-da keçirilən iclasında “Bələdiyyələrə əlavə səlahiyyətlərin verilməsi haqqında” qanun layihəsi müzakirə olunub. Komissiyanın sədri Arif Rəhimzadə müzakirəyə daxil edilən “Bələdiyyələrə əlavə səlahiyyətlərin verilməsi haqqında” qanun layihəsi ilə komissiya üzvlərini tanış edib. A.Rəhimzadə bildirib ki, qanun müvafiq icra hakimiyyəti orqanları tərəfindən bələdiyyələrə yerli əhəmiyyətli məsələlərin həlli üçün əlavə səlahiyyətlərin verilməsini və bunun həyata keçirilməsini müəyyən edəcək. Qeyd olunub ki, müvafiq icra strukturları bələdiyyə orqanlarına dövlət mülkiyyətində olan obyektlərin idarə olunması, yaşayış fondu, qeyri-yaşayış binaları, infrastruktur obyektlərinin istismarı, ictimai nəqliyyatın, təsərrüfat yollarının, təhsil, mədəniyyət, səhiyyə, idman və bədən tərbiyəsi ilə bağlı sahələrin idarə olunması və inkişafı, bələdiyyə ərazisində yerləşən tarixi abidələrin, park və qəbristanlıqların abadlaşdırılması, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı ilə bağlı müəyyən səlahiyyətlər verə bilər.

Komissiya üzvləri və mütəxəssislər sənədi ətraflı müzakirə edərək, Milli Məclisə çıxarılmasını məqsədəuyğun hesab ediblər.

***Milli Məclisin iclasında bir neçə qanun layihəsi qəbul olunub***

Milli Məclisin martın 30-da keçirilən iclasında «Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının imtiyaz və immunitetləri haqqında» protokol təsdiq edilib. Müzakirə olunan sənəd haqqında parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının sədri Səməd Seyidov məlumat verib. Milli Məclis eyni zamanda Azərbaycan Təhsil Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Ali Təhsil Nazirliyi arasında elm və təhsil sahəsində əməkdaşlığı nəzərdə tutan memorandumu, «Auditorun mülki hüquq məsuliyyətinin icbari sığortası haqqında», «Daxili audit haqqında» (iknici oxunuş) qanun layihələrini və «Dövlət qulluqçularının etik davranış kodeksini» (ikinci oxunuş) qəbul edib.

***Gələn ildən Azərbaycanda yeni Gömrük Məcəlləsi qüvvəyə minə bilər***

Gömrük Məcəlləsinin yeni variantı artıq 2008-ci ildə qüvvəyə minə bilər. Bu barədə Azərbaycan Dövlət Gömrük Komitəsinin (DGK) sədr müavini Səfər Mehdiyev məlumat verib. Onun sözlərinə görə, əsas məsələ onun parlament tərəfindən qəbul olunmasıdır. Bundan sonra normativ və hüquqi aktlar məcəlləyə uyğunlaşdırılacaq. Hazırda sənəd son redaktədən keçir, belə ki, o, tamamilə beynəlxalq qanunvericilik dilində yazılıb və indi milli qanunvericilik dilinə uyğun olaraq tərcümə olunur. Qanunvericilik bazasının beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi BMT-nin İnkişaf Proqramı və Avropa Birliyinin gömrük xidmətinin təkmilləşdirilməsi layihəsi çərçivəsində nəzərdə tutulub. Azərbaycanda gömrük sisteminin davamlı inkişafının təmin edilməsi üçün Gömrük Məcəlləsinin yeni variantı hazırlanıb. Bunun üçün əvvəllər Rusiya və Qazaxıstanda işləmiş mütəxəssis cəlb olunub. Məcəllədə informasiya texnologiyaları əks olunub və həmçinin əsas diqqət gömrük əməkdaşının imkan və fəaliyyətinə aid maddələrə ayrılıb.

**Azərbaycan hökuməti orta aylıq gəlirin hesablanması qaydasını dəyişib**

Azərbaycan Nazirlər Kabinetinin qərarı ilə ailələrin orta ayılq gəlirinin hesablanma Qaydası və müraciət, verilmə və sosial yardımdan imtina edilməsi Qaydalarına dəyişikliklər edilib. Bu barədə hökumətdən məlumat verilib.

Dəyişikliklərin edilməsi zəruriliyi Prezidentin 22 yanvar 2007-ci il tarixli əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün əlavə tədbirlər haqqında sərəncamı ilə bağlıdır. Bu sərəncam enerji daşıyıcıları, kommunal xidmətlərə olan tariflərin artırılmasından sonra qəbul olunub. Dəyişikliklər vergi ödəməsində hər ailə üzvü üçün ünvanlı sosial yardım üzrə növbəti tələbat kriteriyasının təsdiqinə, sosial sığorta ödəmələri və digər məcburi ödəmələrə qədər gəlirlərdən 5 manat hesablanacaq.

# 6. Hökümət hesabat verir

***Baş nazir: Azərbaycan iqtisadiyyatı yeni keyfiyyət mərhələsinə qədəm qoyub***

Bu gün Milli Məclisdə Azərbaycan hökumətinin 2006-cı il hesabatı dinlənilib. Hesabatı təqdim edən baş nazir Artur Rəsizadə məlumat verib ki, üç il bündan əvvəl Azərbaycan iqtisadiyyatı iki həlledici xüsusiyyəti ilə xarakterizə olunan yeni keyfiyyət mərhələsinə qədəm qoyub. Birincisi, sosial-iqtisadi inkişafın uğurla davam etdirilməsi, ikincisi, iqtisadi və institusional islahatların dərinləşdirilməsidir. O, Nazirlər Kabineti fəaliyyətinin əsasını təşkil edən istiaqmətləri sadalayıb. Bu vaxt ərzində ölkənin qeyri-neft sahəsinin inkişafı istiqamətində, regionlarda, sosial sahədə, infrastrukturun təkmilləşdirilməsi üçün kompleks tədbirlər həyata keçirilib. Ölkənin enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, yoxsulluq probleminin həlli və digər istiqamətlərdə tədbirlər həyata keçirilib. ÜDM 2003-cü illə müqayisədə 1,4 dəfə, adambaşına düşən ÜDM isə 2,7 dəfə artıb. Əhalinin pul gəlirləri üç il ərzində 1,8 dəfə, orta aylıq əməkhaqqı 2 dəfə, sosial istiqamətli xərclər - 3 dəfə, investisiyalar - 7,8 dəfə, müdafiə xərcləri - 2,4 dəfə, büdcə xərcləri və gəlirlər 3 də- fədən çox artıb. Bu dövr ərzində ölkə iqtisadiyyatının inkişafına 14 mlrd. dollar investisiya qoyulub.

Nazirlər Kabinetinin hər kvartalda keçirilən geniş iclaslarında cari və strateji məsələlər müzakirə olunur, müxtəlif problemlərin həlli üçün konkret yollar müəyyən edilir və bu da 2006-cı ildə praktiki olaraq iqtisadiyyatın bütün istiqamətlərində böyük uğurların əldə olunmasına səbəb olub.

Ötən il ölkə üçün iqtisadi hadisələrlə - enerji təhlükəsizliyinin təminatı üçün dünyada böyük əhəmiyyətə malik olan Bakı-Tbilisi-Ceyhan boru kəmərinin istifadəsi və Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi üzrə qəbul olunmuş qərarla tarixi il olub. Sosial-iqtisadi islahataların dərinləşdirilməsi nəticəsində 2006-cı ildə pensiya sisteminin yenidən formalaşdırılması çərçivəsində müvafiq normativ-hüquqi baza yaradılıb, ünvanlı sosial yardım tətbiq olunub, ilk dəfə olaraq ipoteka kreditlərinin verilməsinə başlanılıb, denominasiya prosesi də uğurla başa çatıb. Bununla yanaşı, uzun müddət davam edən Naxçıvan MR-in qazla təminat problemi də həll olunub.
2006-2010-cu illər üçün ətraf mühitin mühafizəsi və ölkədə ekoloji vəziyyətin yaxşılaşdırılması üçün Dövlət Proqramı təsdiqlənib və reallaşdırılmağa başlanılıb.

ÜDM-in real artımı ötən il 34,5 faiz, cari qiymətlərlə 17,7 mlrd. manat təşkil edib. Adam başına düşən əlavə dəyər 33 faiz artaraq 2400 dollara çatıb. Beynəlxalq maliyyə təşkilatları və bank struk- turlarının təsdiqlədiyinə görə, Azərbaycan dinamik inkişaf edən ölkələr siyahısına daxil edilib.

*Qeyd: İnformasiyaların mənbəyi "Trend" İnformasiya Agentliyi və Vergilər Nazirliyidir.*

Məsul redaktor: Kənan Aslanlı (İctimai Vəsaitin Monitorinqi Mərkəzi)
kenan@pfmc.az

İctimai Vəsaitin Monitorinqi Mərkəzi (İVMM)
Ünvan: 39, Füzuli küç., 28, 2[ci] mərtəbə, Bakı AZ1014, Azərbaycan
Telefon/Fax: (+994 12) 497 8967, 596 3774
office@pfmc.az; http://www.pfmc.az

Milli Büdcə Qrupu (MBQ)
Azərbaycan, Bakı, AZ1110, Ak. Həsən Əliyev küç. 117A
Tel: (+994 12) 564 34 65 (69); Fax: (+994 12) 564 34 66
fnajafova@osi-az.org; http://www.nbg.az